# Həftəlik *Bülleten*



**099**
**11 İyul 2025**

- Xəbərlər
- Tədbirlər
- Görüşlər
- Tender və layihələr
- Dünya tikililəri

ATMİA

info@atmia.az www.atmia.az

**Azərbaycan və Birləşmiş Ərəb Əmirlikləri rəsmən iqtisadi tərəfdaş oldu - SAZİŞ İMZALANIB.**

Azərbaycanla BƏƏ arasında imzalanmış Hərtərəfli İqtisadi Tərəfdaşlıq Sazişi iqtisadi əməkdaşlığın gücləndirilməsini, ticarətin liberallaşdırılması və asanlaşdırılmasını nəzərdə tutur. Azərbaycan Prezidenti İlham Əliyevin Birləşmiş Ərəb Əmirliklərinə işgüzar səfəri çərçivəsində Prezident Şeyx Məhəmməd bin Zayed Al Nəhyan ilə keçirilən görüş zamanı "Azərbaycan Respublikası Hökuməti ilə Birləşmiş Ərəb Əmirlikləri Hökuməti arasında Hərtərəfli İqtisadi Tərəfdaşlıq Sazişi" (CEPA) imzalanıb. Sənədi Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarov və Birləşmiş Ərəb Əmirliklərinin xarici ticarət naziri Tani bin Əhməd əl-Zeyoudi imzalayıblar. Sazişin əsas məqsədi tərəflər arasında iqtisadi əməkdaşlığın gücləndirilməsi, ticarətin liberallaşdırılması və asanlaşdırılmasıdır. Azərbaycan və BƏƏ arasında strateji əlaqələrin bir hissəsi kimi iqtisadiyyatın şaxələndirilməsini və rifahı artırmağı hədəfləyən Sazişin imzalanması ikitərəfli münasibətlərdə mühüm mərhələdir. Ölkələrimiz arasında CEPA-nın imzalanması sənaye, bərpa olunan enerji, kənd təsərrüfatı, maliyyə, logistika, turizm, tikinti və digər sahələrin inkişafına imkanlar açacaq. Saziş qarşılıqlı sərmayə axınını artırmaqla təchizat zəncirlərinin gücləndirilməsi, sahibkarların, kiçik və orta müəssisələrin qlobal miqyasda fəaliyyətlərinin genişləndirilməsinə töhfə verəcək.



**Sənayenin inkişafında maneələrin və çətinliklərin aradan qaldırılmasına start verilib**

Azərbaycan Prezidenti İlham Əliyevin tapşırığı ilə iqtisadiyyatın gələcək dövrün çağırışlarına uyğunlaşdırılmasına imkan verilməsi məqsədilə yaradılan İqtisadi Şuranın 11 aprel 2025-ci il tarixli Qərarına əsasən, şuranın tərkibində Sahibkarlıq fəaliyyətinə maneə və çətinliklərin aradan qaldırılması və biznes mühitinin yaxşılaşdırılması islahatları üzrə işçi qrupu yaradılıb. İqtisadi sahənin əsas sütunu olan sənaye sahəsində sahibkarlıq fəaliyyətinə maneə və çətinliklərin müəyyənləşdirilməsi və müvafiq təkliflərin hazırlanması üzrə Koordinasiya Qrupunun rəhbəri "Mətanət A" şirkətinin Müşahidə Şurasının sədri və Azərbaycan Tikinti Materialları İstehsalçıları Assosiasiyasının (ATMİA) İdarə Heyətinin sədri Bəşirov Elxan Hidayət oğlu seçilib. Koordinasiya qrupu ölkənin 100-dən çox aparıcı şirkətləri özündə birləşdirir. Qrupun rəhbəri koordinasiya üzvləri ilə birgə maneə və çətinliklərlə bağlı təklifləri müzakirə edir, onları təhlil edərək optimallaşdırır və qanunvericiliyə uyğun formada layihələndirərək ölkə başçısının köməkçisinə təqdim edir.

Xəbərin ardını linkə daxil olaraq oxuya bilərsiniz. https://azertag.az/xeber/__senayenin_inkisafinda_maneelerin_ve_chetinliklerin_aradan_qaldirilmasina_start_verilib-3647851



**Azərbaycanda plastik boru kəmərləri sahəsində yeni dövlət standartları qəbul edilib.**

Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin tabeliyində olan Azərbaycan Standartlaşdırma İnstitutu (AZSTAND) tərəfindən su təchizatı, drenaj və təzyiqli kanalizasiya sistemləri üçün plastik boru kəmərləri sahəsində AZS EN 12201-1:2025 "Su təcizatı, drenaj və təzyiqli tullantı suları üçün plastik boru kəməri sistemləri. Polietilen (PE) - Hissə 1: Ümumi tələblər", AZS EN 12201-2:2025 "Su təcizatı, drenaj və təzyiqli tullantı suları üçün plastik boru kəməri sistemləri. Polietilen (PE) - Hissə 2: Borular" və AZS EN 12201-3:2025 "Su təcizatı, drenaj və təzyiqli tullantı suları üçün plastik boru kəməri sistemləri. Polietilen (PE) - Hissə 3: Fitinqlər" yeni dövlət standartları qəbul edilib. AZSTANDA-a istinadən xəbər verilir ki, sözügedən dövlət standartları polietilen (PE) materialından hazırlanan boru, fitinq və komponentlərin keyfiyyət və təhlükəsizlik göstəricilərini artırmaq məqsədilə qəbul edilib. Bu standartlar su təchizatı, drenaj və təzyiqli kanalizasiya sistemləri üçün plastik boru kəmərlərinin ümumi tələblərini müəyyən edir. Belə ki, yeni dövlət standartlarının tətbiqi ilə əhali, sənaye müəssisələri və digər sahələrin su ilə təchiz edilməsində istifadə edilən xətlər, eləcə də tullantı sularının axıdılması üçün xətlərin davamlılığına, su itkisinin azaldılmasına və səmərəli istifadəsinə imkan yaranacaq.

AZƏRBAYCAN STANDARTLAŞDIRMA İNSTİTUTU

**Ağdamda yeni şirkət - Lift və eskalator istehsal edəcək.**

Ağdam Sənaye Parkında lift və eskalator istehsalı müəssisəsi yaradılacaq. Bu barədə İqtisadiyyat Nazirliyinin tabeliyində İqtisadi Zonaların İnkişafı Agentliyindən məlumat verilib.

Bildirilib ki, Azərbaycan-Çin birgə kapitallı “Fujiai Azerbaijan” MMC-yə Agentliyin idarəçiliyində olan Ağdam Sənaye Parkının rezidentliyi statusu verilib. Yeni rezident tərəfindən Sənaye Parkının 1 hektar ərazisində lift istehsalı müəssisəsi yaradılacaq. Layihənin investisiya dəyəri 3,7 milyon manatdır.

Çinin qabaqcıl texnologiyalarından istifadə ediləcək müəssisədə il ərzində 1 200 ədəd lift istehsalı nəzərdə tutulur. Növbəti mərhələ şirkət tərəfindən Sənaye Parkında eskalator istehsalı layihəsinin də həyata keçirilməsi nəzərdə tutulur.

Qeyd edək ki, Ağdam Sənaye Parkında hazırda investisiya portfeli 270 milyon manat olan 29 sahibkarlıq subyekti rezident, 4 sahibkar isə qeyri-rezident kimi qeydiyyatdan keçib.



**Ordubadda "15 dəqiqəlik şəhər" konsepsiyası tətbiq ediləcək.**

Ordubadın yenilənən baş planının əsas istiqamətlərindən biri də infrastrukturun müasirləşdirilməsidir. Bu çərçivədə yolların genişləndirilməsi, yeni ictimai nəqliyyat xətlərinin yaradılması və piyada əlçatanlığının artırılması xüsusi yer tutur. Layihədə "15 dəqiqəlik şəhər" konsepsiyasının tətbiqi nəzərdə tutulur. Bu yanaşmaya əsasən, şəhər sakinləri yaşadıqları ərazidən uzaqlaşmadan – maksimum 15 dəqiqəlik məsafədə alış-veriş, səhiyyə, təhsil, istirahət və digər əsas xidmətlərdən istifadə edə biləcəklər. Layihəni icra edən İsveçrənin "SA Partners" şirkətinin nümayəndəsi Angela Wiest bu barədə bir sıra vacib məqamlara toxunub. Onun sözlərinə görə, planlamada əsas məqsədlərdən biri şəhərdə hərtərəfli əlçatanlığın təmin olunmasıdır: "Ən önəmli faktorlardan biri odur ki, insanlar yaşadıqları yerdə piyada istədikləri xidmətlərə çata bilsinlər. Layihədə yavaş hərəkət zolaqları (slow traffic lanes) da nəzərdə tutulur. Yeni ictimai nəqliyyat xətləri yaradılaraq həm şəhər daxilində, həm də dəmiryolu stansiyasına sərnişin axını təmin olunacaq. Bütün sistem bir-biri ilə əlaqəli şəkildə qurulacaq ki, insanlar yalnız avtomobildən istifadə etməyə məcbur qalmasınlar." Hazırlanan plan Ordubadda həm dayanıqlı şəhərsalmanın təmin olunmasına, həm də ekoloji baxımdan daha sağlam mühitin formalaşmasına töhfə verəcək.



**Hörmətli ATMİA üzvləri!**

14–16 oktyabr 2025-ci il tarixlərində Baku Expo Mərkəzində keçiriləcək BakuBuild & Rebuild Karabakh beynəlxalq sərgisinin rəsmi tərəfdaşı qismində ATMİA öz üzvlərinə sərgidə xüsusi şərtlərlə stend qurmaq imkanı təqdim edir.
Ətraflı məlumat üçün bizimlə əlaqə saxlamanızı xahiş edirik.
050 265 36 34



# SƏRGİ/KONFRANS/FORUM

**Sərginin adı: ASIA CEMENTRADE SUMMIT 2025**
**Tarixlər: 23 - 24 iyul 2025-ci il,**
**Məkan: Sheraton Bali Kuta Resort, Nusa Dua (Bali) (İndoneziya)**
Asiyada Sement Sənayesinə həsr olunmuş Forum. Asiyada Yaşıl Sementin Gələcəyi, Karbonsuzlaşdırma Strategiyaları və Texnologiyalar İnnovasiyaları.

**Sərginin adı: ZAK WORLD OF FAÇADES - CHINA - SHANGHAI 2025**
**Tarixlər: 24 iyul 2025-ci ildə,**
**Məkan: Şanxay (Çin) jin Qan Şanqri-LA qərbi Şanxay**
Zak World of Fasades fasad dizaynı və mühəndisliyi üzrə beynəlxalq konfrans seriyasıdır.

**Sərginin adı: KOREA BUILD WEEK 2025**
**Tarixlər: 30 iyul - 02 avqust 2025-ci il,**
**Məkan: COEX Sərgi Mərkəzi, Seul (Cənubi Koreya)**
Tikinti materialları, memarlıq, tikinti, texnologiya və dizayn üzrə B2B sərgisi.

**Sərginin adı: THERMAL ENGINEERING 2025**
**Tarixlər: 23 - 25 iyul 2025-ci il,**
**Məkan: Tokio Beynəlxalq Sərgi Mərkəzi (Tokyo Big Sight), Tokio (Yaponiya)**
Yaponiyada Avadanlıqlar, Maşınlar, Radiatorlar, Soyuducular və Texniki İzolyasiya Sərgisi

**Mədəniyyət müəssisələrinin təmiri üçün yeni tenderlər elan edilib – ŞƏRTLƏR.**

Mədəniyyət Nazirliyinin tabeliyində fəaliyyət göstərən "Əsaslı Tikinti və Təchizat" MMC tərəfindən iki uşaq musiqi məktəbinin əsaslı təmir işləri ilə bağlı yeni tenderlər elan olunub. Birinci tender Ağdam rayonunun Əhmədağalı kəndində yerləşən uşaq musiqi məktəbinin əsaslı təmirinə aiddir. İkinci tender isə Qobustan rayonunun Təklə kəndində yerləşən uşaq musiqi məktəbinin əsaslı təmir işlərinə aiddir.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Elmir Murquzov, Satınalma mütəxəssisi.
Email: tender@culture.gov.az
Əlaqə telefonu: +994 12 565 01 47 (daxili 448)



**Qubadlıda 61 milyon manata nə tikiləcək? - TİKİNTİ ŞİRKƏTLƏRİ ÜÇÜN FÜRSƏT**

"Tikilməkdə Olan Obyektlərin Müdiriyyəti" Publik Hüquqi Şəxsi açıq tender elan edir.
Elanda Bərgüşadçay su anbarının tikintisi nəzərdə tutulub.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Hüseynov Yusif, Baş məsləhətçi
Email : yusif.huseynov@toom.gov.az
Əlaqə telefonnu: +994 55 225 12 31



**Qarabağda KSES-lər inşa ediləcək - TENDER KEÇİRİLİR.**

“Azərenerji” Açıq Tipli Səhmdar Cəmiyyəti Azərbaycanda bərpa olunan enerji sahəsində yeni layihələrə başlayır.
Elanda Kəlbəcər şəhəri və Eyvazlı kəndində yerləşəcək KSES-lərin tikintisini və onların enerji sisteminə inteqrasiyasını əhatə edir.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Həmid İsazadə, “Azərenerji”nin baş mütəxəssisi
Email: hemid.isazade@azerenerji.gov.az
Əlaqə telefonu: +994 12 490 09 27



**Ağdamda 615 min manatlıq üç layihə üzrə tender elan olunub – DETALLAR.**

Ağdam Rayon İcra Hakimiyyəti ümumi dəyəri 615.002,70 AZN olan üç tender elan edib. Hər üç satınalma Quzanlı və ətraf ərazilərdə aparılacaq təmir və abadlıq işlərini əhatə edir. Birinci tender Ağdam rayon ərazisində abidələrin abadlaşdırılması işləri ilə bağlıdır. İkinci tender Quzanlı qəsəbəsində yerləşən qeyri-yaşayış binasının əsaslı təmiri ilə bağlıdır. Üçüncü tender isə Quzanlı qəsəbəsi, "daş evlər" adlanan ərazidə fərdi yaşayış evlərinin əsaslı təmirini əhatə edir.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –
İlkin Aslanov, mühəndis
Email: aslanovilkin78@mail.ru,
Əlaqə telefonu: +994 26 325 00 06



**Ağdamda 9,5 milyona yeni massiv inşa ediləcək - TENDER KEÇİRİLİR.**

Ağdam, Füzuli və Xocavənd Rayonlarında Bərpa,Tikinti və İdarəetmə Xidməti Publik Hüquqi Şəxsi açıq tender elan edir.
Elanda “Ağdam şəhəri 5-ci yaşayış massivi, məhəllə O-136 üzrə binaların tikintisi işləri”nin satın alınması nəzərdə tutulub.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Tural Rzayev, Baş məsləhətçi
Email : t.rzayev@afxbti.gov.az
Əlaqə telefonnu: +994554899820



**AZƏRBAYCAN RESPUBLİKASI QAÇQINLARIN VƏ MƏCBURİ KÖÇKÜNLƏRİN İŞLƏRİ ÜZRƏ DÖVLƏT KOMİTƏSİ MƏNZİL İSTİSMAR DEPARTAMENTİ TENDER ELAN EDİR.**

Azərbaycan Respublikası Qaçqınların Və Məcburi Köçkünlərin İşləri Üzrə Dövlət Komitəsi Mənzil İstismar Departamenti açıq tender elan edir.
Elanda Biləsuvar rayonunda salınmış məcburi köçkün qəsəbələrində fərdi yaşayış evlərinin təmiri nəzərdə tutulub.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Fariz Abbasov, Sektor müdiri
Email : fariz.abbasov@idp.gov.az,
Əlaqə telefonnu: +994 12 430 15 30





**www.atmia.az**